# Məcburi köçkünlərə yüksək diqqət və qayğının real təzahürləri

**Son zamanlar Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı onun hər bir vətəndaşının həyatında özünü göstərməkdə, insanların rifah halının gündən-günə yaxşılaşmasına təkan verməkdədir. Təsadüfi deyil ki, son 16 ildə ölkədə təxminən 1 milyon 500 min yeni daimi iş yeri açılmış, yoxsulluğun səviyyəsi 5 faizə düşmüşdür. Əhalinin pul gəlirlərinin çoxalması, illik inflyasiyanın 2 faiz təşkil etməsi, əməkhaqqı və pensiyaların həcmində olan artımlar və bu qəbildən olan digər amillər ölkədə sosial sferada vəziyyətin daha da yaxşılaşdırılmasını xarakterizə edən mühüm amillərdəndir.**

Əldə edilən bütün bu uğurlar Ermənistanın həyata keçirdiyi işğalçılıq siyasəti nəticəsində öz doğma el-obalarından didərgin düşən qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur olan insanların sosial vəziyyətinə də təsirsiz ötüşməyib. Vaxtilə ulu öndər Heydər Əliyev bu qəbildən olan insanlara daim diqqət və qayğı ilə yanaşıb, onların sosial müdafiəsi və mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində xeyli işlər görüb. Bu gün Ulu Öndər siyasətini layiqli davamçısı Prezident İlham Əliyev də fəaliyyətində qaçqın və məcburi köçkünlərə xüsusi diqqət və qayğını ön planda saxlayır. 2003-cü ildən bu günədək Prezident İlham Əliyev qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, onların məşğulluğunun təmin edilməsi ilə bağlı 70-dən çox Fərman və Sərəncam imzalaması, bir çox proqramların qəbul edilməsi bunun əyani sübutudur.



Azərbaycanın MDB, eləcə də Avropa məkanında qaçqın və məcburi köçkünlərin sayına görə ilk yerlərdə gələn dövlətlərdən biri olmasına baxmayaraq, hər zaman bu kateqoriyadan olan insanların həyat səviyyəsinin yaxşılaşdırılması baxımından ən fəal siyasət yürüdən və yüksək nəticələr əldə edən ölkələrdən biri hesab olunur. Bu gün də qaçqın və məcburi köçkünlərin yaşayış səviyyəsinin daha da yaxşılaşdırılması dövlətin həyata keçirdiyi siyasətin əsas istiqamətlərindən birini təşkil edir və göstərilən istiqamətdə lazımi nəticəyə nail olunması üçün Azərbaycanın kifayət qədər imkanları var. Cari il ərzində bu istiqamətdə görülən işlərin miqyası da bunu açıq-aydın formada ortaya qoyur.

Bu günlərdə dövlətimizin başçısı cənab İlham Əliyev Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayevi qəbul edərək bildirib ki, məcburi köçkünlərin problemlərinin həlli istiqamətində bu il də çox böyük işlər nəzərdə tutulur: "Bu işlərin bir hissəsi artıq görülüb. Bu yaxınlarda "Qobu Park-2" yaşayış kompleksinin açılışını qeyd etdik. Bu kompleksdə 1300 qaçqın ailəsi yerləşəcək. Kompleksin açılışında gördüm ki, ən yüksək standartlar tətbiq olunur. Çox gözəl, rahat evlər, gözəl ictimai zonalar, məktəb, uşaq bağçası, supermarket, tibb məntəqəsi, yeni yaşayış üçün bütün şərait yaradılıbdır. Sevindirici hal ondan ibarətdir ki, "Qobu-1" və "Qobu-2" komplekslərinin tikintisi sırf özəl sektor tərəfindən təmin edildi. Hazırda tikilməkdə olan "Qobu-3" də özəl sektorun vəsaiti hesabına inşa edilir. Beləliklə, təqribən 4 minə yaxın köçkün ailəsi Qobu qəsəbəsində ən müasir standartlara cavab verən mənzillərlə təmin ediləcəkdir".

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev bu günlərdə mətbuata açıqlamasında bildirib ki, Prezident İlham Əliyevlə görüşdən sonra onun verdiyi tapşırıqların icrası istiqamətində işlərə başlanılıb. Komitə sədri qeyd edib ki, dövlət başçısının tapşırığına əsasən, gələn ilin sonuna qədər 7000-dən çox məcburi köçkün ailəsi mənzillə təmin olunacaq. Bu işlərin icrası üçün dövlət tərəfindən ayrılmış vəsaitin bir qismi Komitəyə verilib: "Vəsaitin qalan hissəsi gələn il veriləcək. Beləliklə də Komitə tərəfindən bütün tapşırıqlar yerinə yetiriləcək".

R.Rzayev onu da vurğulayıb ki, hazırda Bakı şəhəri Qaradağ rayonunun Ümid qəsəbəsində əlavə 3 bina tikilir, Sabunçu rayonunun Ramana qəsəbəsində 1500-dən artıq ailə üçün qəsəbə tikilir. Binəqədi rayonunun Xocasən qəsəbəsində 800 ailəlik yeni qəsəbə salınacaq. Bununla yanaşı, Sumqayıtda köçkünlər üçün bir qəsəbə tikilir, digərinin tikintisinə isə gələn ilin əvvəlində başlanılacaq. Bu ilin sonuna qədər 6000-ə qədər ailə köçürüləcək. Hazırda Komitə tərəfindən Bakıda və rayonlarda 3700 ailəlik qəsəbə tikilir. Özəl sektorun da buna çox böyük töhfəsi var.

**Mənsumə Babayeva,**
***"İki sahil"***



**İki sahil.- 2019.- 6 noyabr.- S.2.**